**PRESS-RELİZ**

**25 iyul 2023**

**Məhkəmələr ilk növbədə borclu inzibati orqan tərəfindən məhkəmə qərarının icrasının "formal icra" olub-olmadığına qiymət verməlidir. Məhkəmələr həmçinin müəyyən edilmiş müddət ərzində icra ilə bağlı qərarın qəbul edilməməsinin səbəblərini də araşdırmalı, icranın həyata keçirilməsi ilə bağlı hər iki tərəfin davranışlarına işin hallarını və yerinə yetirilməli olan icra hərəkətlərinin məzmununu nəzərə almaqla qiymət verməlidir.**

***İddiaçı XXX borclu Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə qarşı "məhkəmə qərarının icra olunmamasına görə cərimənin tətbiq edilməsi" tələbinə dair inzibati iş***

**İşin halları:**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (bundan sonra – Agentlik) iddiaçının övladı YYY sağlamlıq imkanları məhdudluğunu qiymətləndirmiş və əlavə müalicəyə ehtiyacın olması barədə qərar vermişdir. Daha sonra iddiaçı məhkəməyə müraciət edərək cavabdeh orqanın bu qərarının ləğv edilməsi və oğlunun sağlamlıq imkanlarının məhdudluğunun müəyyən edilməsi öhdəliyinin cavabdehin üzərinə qoyulmasını xahiş etmişdir. Birinci və apellyasiya instansiya məhkəmələri şikayəti təmin etməmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının 2022-ci il 21 iyun tarixli qərarı ilə Şəki Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2022-ci il 24 fevral tarixli qərarı ləğv edilmiş, Agentliyin imtina qərarı ləğv edilməklə, onun üzərinə müraciətə yenidən baxmaq öhdəliyi qoyulmuşdur.

İş birinci instansiya məhkəməsinə qaytarıldıqdan sonra Şəki İnzibati Məhkəməsi 2022-ci il 10 avqust tarixli məktubla Ali Məhkəmənin İnzibati Kollegiyasının 2022-ci il 21 iyun tarixli qərarından çıxarışı icra edilməsi üçün borclu Agentliyə göndərmiş, qərarın icra edilməsi və qərarın icrasını təsdiq edən sənədlərin məhkəməyə təqdim edilməsi üçün bir ay müddət müəyyən etmiş, əks təqdirdə, borclu orqana cərimə tətbiq olunacağı barədə xəbərdarlıq etmişdir. İşdəki poçt xəbərnaməsindən görünür ki, sözügedən məktub 15 avqust 2022-ci il tarixdə borclu inzibati orqan tərəfindən qəbul edilmişdir. Lakin məhkəmə tərəfindən müəyyən olunmuş 1 aylıq müddət ərzində Ali Məhkəmənin qərarının icrasını təsdiq edən sənədlər Şəki İnzibati Məhkəməsinə təqdim olunmamışdır.

Bundan sonra tələbkar 27 oktyabr 2022-ci il tarixdə məhkəməyə müraciət edərək məhkəmə qərarının icra edilmədiyini bildirmiş və qərarı icra etməyən vəzifəli şəxsin cərimə olunmasını xahiş etmişdir. İcraya nəzarət edən məhkəmə borclu inzibati orqan barəsində cərimənin tətbiqi məsələsinə baxılması üçün 2022-ci il 15 noyabr tarixə

məhkəmə iclası təyin etmiş, məhkəmə 2022-ci il 27 oktyabr tarixli məktubla tərəflərə bu barədə məlumat vermişdir.

Bundan sonra borclu Agentliyin məhkəmə qərarının icrası məsələsinə dair 2022-ci il 25 oktyabr tarixli məktubu 02 noyabr 2022-ci il tarixdə məhkəməyə daxil olmuşdur. Həmin məktubda göstərilmişdir ki, 2022-ci il 10 avqust tarixli çağırışla YYY əlillik vəziyyətinin obyektiv qiymətləndirilməsi üçün tibbi sənədlərlə birgə əyani müayinə olunmaq üçün Agentliyə dəvət olunsa da, vətəndaş əyani müayinə üçün müraciət etməmişdir. Borclu tərəfindən göndərilən və məhkəməyə 11 noyabr 2022-ci il tarixdə daxil olmuş elektron məktubda bildirilmişdir ki, Ali Məhkəmənin qərarının icrası ilə bağlı YYY Forma 88 yenidən qiymətləndirilmiş və məhkəmə qərarı icra olunmuşdur.

Borclunun göstərilən məktubuna 2022-ci il 10 noyabr tarixli AgentliyinTibbi-Sosial Ekspert Komissiyasının qərarının surəti əlavə edilmişdir. Həmin qərardan görünür ki, YYY barədə dövlət tibb müəssisəsinin göndərişi əsasında əlillik vəziyyəti şəxsin iştirakı olmadan qiymətləndirilmiş, göndəriş əsasında sağlamlıq imkanları məhdudluğunun və ya orqanizmin funksiyalarının pozulma faizinin təyinatının aparılması mümkün olmadığı və xəstənin hazırkı vəziyyətinin, qıcolmaların tezliyinin və xarakterinin dəqiqləşdirilməsi, eləcə də ətraflı köməkçi diaqnostik müayinələrin aparılması üçün əlavə müalicəyə ehtiyacının olması barədə qərar verilmişdir. Birinci instansiya məhkəməsi tələbkarın şikayətini təmin etməmiş, apellyasiya instansiya məhkəməsi də qərardadı qüvvədə saxlamışdır. Bundan sonra tələbkar yenidən Ali Məhkəməyə müraciət etmişdir. Hazırda tərəflər arasındakı mübahisə Ali Məhkəmənin sözügedən qərarının icra olunub-olunmaması, qərar icra olunmamış sayılacağı halda borclu barəsində müvafiq məsuliyyət tədbirlərinin tətbiqi ilə bağlıdır.

**Yekun məhkəmə aktı:**

Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarı ilə tələbkarın kassasiya şikayəti təmin edilmiş, Şəki Apellyasiya Məhkəməsinin qərardadı ləğv olunmuş, iş təkrar baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir.

**Məhkəmənin mövqeyi:**

Məhkəmə qeyd edir ki, məhkəmə qərarlarının icrası məhkəmə müdafiəsi hüququnun ayrılmaz tərkib hissəsini təşkil edir. Məhkəmə qərarının icra olunmaması məhkəmə müdafiəsi hüququnu puç və əhəmiyyətsiz etməklə, həmin hüququn son nəticədə xəyali hala çevrilməsinə səbəb olur. Buna görə də, məhkəmə qərarı vaxtında, tam və düzgün icra olunmalıdır. Bu qaydada icra onu nəzərdə tutur ki, qərar vaxtında icra olunmaqla yanaşı, həm də onun məzmununa uyğun icra olunmalı, icra formal deyil, mahiyyəti üzrə baş tutmuş olmalıdır. Müvafiq olaraq borclunun icranı təmin etməyə yönəlmiş hərəkətləri qərarın hədəflədiyi yekun faktiki və hüquqi nəticələri təmin etməlidir. Məhkəmə nəzərə alır ki, cavabdeh orqanın üzərinə qoyulmuş öhdəliyin xarakterindən asılı olaraq icra ilə bağlı həyata keçirilməli hərəkətlər fərqli ola bilər. Belə ki, əgər qərarda konkret məzmunlu inzibati aktın qəbul edilməsi öhdəliyi cavabdehin üzərinə qoyulmuşdursa, borclu inzibati orqan məhz həmin məzmunlu inzibati akt qəbul etdikdə, icra baş tutmuş sayılır. Lakin əgər qərarda konkret məzmunlu inzibati aktın qəbul edilməsi öhdəliyi deyil, məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla, müvafiq yeni inzibati aktın

qəbul edilməsi barədə öhdəlik cavabdehin üzərinə qoyulmuşsa, o halda, cavabdeh iddiaçının müraciətinə yenidən baxmalı, lakin bu zaman qərar qəbul edərkən məhkəmə tərəfindən artıq bəyan olunmuş hüquqi mövqeləri də mütləq nəzərə almalıdır. Bu vəziyyətdə qiymətləndirilmə olan əsas məsələ ondan ibarətdir ki, iddiaçının müraciətinə yenidən baxarkən cavabdeh məhkəmə qərarında məsələyə dair bildirilmiş hüquqi mövqelərdən irəli gələn qaydada inzibati icraat və hüquqi dəyərləndirmə aparmışdırmı? Cavabdehin bu qaydada davranıb-davranmadığını müəyyən etmək üçün isə onun qəbul etdiyi yeni qərarın məzmun və mahiyyəti təhlil olunmalıdır.

Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla, məsələyə yenidən baxarkən inzibati orqan bütün hallarda iddiaçının xeyrinə qərar qəbul etmək öhdəliyi daşımır. İnzibati orqandan bu vəziyyətlərdə gözlənilən odur ki, o, məsələyə yenidən baxarkən məhkəmənin hüquqi mövqelərini nəzərə almaqla icraat aparsın. Bunun üçün isə yeni icraat nəticəsində qəbul edilmiş qərardan aydın görünməlidir ki, cavabdeh məsələ üzrə məhkəmənin hüquqi mövqelərinin nələrdən ibarət olduğunu görüb, anlayıb və onlardan irəli gələn qaydada və həcmdə araşdırmanı həyata keçirib, eləcə də hüquqi qiymətləndirməni aparıb. Məhkəmə hesab edir ki, Ali Məhkəmənin qərarından irəli gələn icranın baş tutub-tutmadığı məsələsinə qiymət verərkən apellyasiya məhkəməsi sözügedən qaydada təhlil və qiymətləndirmə aparmamışdır. Ona görə də, qərardad ləğv edilməklə iş təkrar apellyasiya baxışına qaytarılmalıdır.

Qeyd edilənlərə əsasən, məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi təkrar baxışda ilk növbədə borclu inzibati orqan tərəfindən məhkəmə qərarının icrasını təmin etmək üçün qəbul edilmiş 2022-ci il 10 noyabr tarixli qərarın “formal icra” olub-olmadığına qiymət verməlidir. Məhkəmə həmçinin müəyyən edilmiş müddət ərzində icra ilə bağlı qərarın qəbul edilməməsinin səbəblərini də araşdırmalı, icranın həyata keçirilməsi ilə bağlı hər iki tərəfin davranışlarına işin hallarını və yerinə yetirilməli olan icra hərəkətlərini məzmununu nəzərə almaqla qiymət verməlidir. Sözügedən məsələlər aydınlaşdırıldıqdan sonra icra ilə bağlı hərəkətlərin davam etdirilməsinə ehtiyacın olub-olmaması və cərimənin tətbiqi müzakirə olunmalıdır.

***Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə tərtib edilmişdir və məhkəmə qərarının tərkib hissəsi olmamaqla, onun qısa mətnini təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş və tərtib edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər. Məhkəmə aktının tam mətni ilə tanış olmaq üçün aşağıdakı linkə keçid edə bilərsiniz.***

***https://sc.supremecourt.gov.az/storage/Inzibat/2023/9_623+11.05.2023.pdf***